http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 15 (1590) 16 sentyabr 2014 - cü il Qiyməti 40 qəpik

# 2014/2015-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:**

1. 2014/2015-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 sentyabr 2014-cü il.




BU SAYIMIZDA



ATU-da "Bilik günü" qeyd edildi 2



MDB MƏKANINDA ƏN MÖHTƏŞƏM TƏDRİS CƏRRAHİYYƏ KLİNİKASI 4-5

TİBBİ ŞURANIN GENİŞLƏNDİRİLMİŞ TOPLANTISINDA

TƏLƏBƏLƏRİMİZ ALMANİYADA YAY PRAKTİKASINDAN QAYIDIB

KƏNARDAKI KAFEDRALAR "TİBB ŞƏHƏRCİYİ"NDƏ CƏMLƏNDİ 3

Z.QARAYEV: "Kafedramızın müəllimləri ATU-nun ictimai həyatında aparıcı qüvvəyə çevrilib" 6



# ATU-da "Bilik günü" qeyd edildi

**◆Təhsilin, elmin, biliyin, tərəqqi üçün açar, inkişafın hərəkətverici qüvvəsi hesab olunduğu ölkəmizdə yeni dərs ilinin ilk günü - «Bilik günü» həmişə ümumxalq bayramı kimi qeyd olunur.**

Bu münasibətlə respublikamızın hər yerində olduğu kimi Azərbaycan Tibb Universitetində də geniş toplantı keçirilmişdir.

Toplantı iştirakçıları ilk öncə ümummilli liderimiz Heydər Əliyevin büstü önünə əklillər qoydu, tər çiçəklər düzdülər.






**Bu elm müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır.**



**Tədbiri giriş sözü ilə açan Tibb Universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov** doğma kollektivi və tələbə adını qazananları, həmçinin onların valideynlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik etmiş və bu əlamətdar günün yaranma tarixindən danışmışdır.

Universitet rəhbərinin çıxışında Azərbaycanın dövlət müstəqilliyini qazanmasından keçən illər ərzində respublikamızın həyatının bütün sahələrində, xüsusən də təhsil sahəsində böyük uğurların əldə edildiyi önə çəkildi. Sözünə davam edən rektor elmə və təhsilə göstərilən dövlət qayğısından bəhs etmiş, universitetin keçdiyi inkişaf yoluna da nəzər salmışdır. Bildirmişdir ki, bu elm müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Tibb təhsilinə həmişə diqqət və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyev iki dəfə ATU-da olmuş, kollektivimiz qarşısında proqram xarakterli çıxış etmiş və müəllimlərimizin əməyinə yüksək qiymət vermişdir. O, ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirmişdir.

Universitetin nəzdində onkoloji, stomatoloji, tədris-terapevtik və tədris-cərrahiyyə klinikalarının fəaliyyət göstərdiyini, deyən rektor bütün bunları Azərbaycan dövlətinin səhiyyə sahəsinə yüksək diqqəti kimi qiymətləndirmişdir. O, məlumat vermişdir ki, bu il 2014/2015-ci tədris ilində ATU-ya 1022 nəfər qəbul olunub. Onlardan 957 nəfər həkim və hərbi həkim, 50 nəfər hərbi feldşer, 15 nəfər isə magistr ixtisasını seçib. Eyni zamanda, müqavilə əsasında 145 xarici tələbə hazırlıq şöbəsindən universitetin birinci kursuna qəbul olunub. Builki qəbul imtahanlarında 600-dən çox bal toplamış 366, 700 bal toplamış 2 nəfər bizim universitetdə təhsil alacaqdır. Prezident təqaüdçülərinin sayı isə 25 nəfərdir.

Universitetimizin əldə etdiyi nailiyyətlərə toxunan rektor vurğulamışdır ki, keçən tədris ili ərzində bir çox uğurlarımız olmuşdur ki, bunlardan ən yadda qalanı tədris cərrahiyyə klinikasının açılışında ölkə Prezidenti İlham Əliyev və Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın bu mərasimdə iştirak etmələri və AMEA-nın bu il keçirdiyi növbəti seçkilər zamanı dörd əməkdaşımızdan bir nəfərin həqiqi, üç nəfərin isə müxbir üzvülüyə seçilməsi olmuşdur.

**Tədbirdə yeni dərs ili münasibətilə müəllim və tələbələri təbrik edən Səhiyyə nazirinin müavini Elsevər Ağayev** Azərbaycan təhsilinin və səhiyyəsinin infrastrukturunda əsaslı islahatlar aparıldığını qeyd edərək bildirmişdir ki, bütün bu irəliləyişlərin kökündə Azərbaycanın daim artan iqtisadi gücü dayanır. Bütün sahələrdə gedən dinamik





inkişaf isə ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan iqtisadi siyasətin təntənəsinin göstəricisidir.

Ölkəmizdə ildən-ilə müəllimlərin və həkimlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışan nazir müavini diqqətə çatdırmışdır ki, Azərbaycan hökumətinin qarşısında duran başlıca məqsəd təhsil və səhiyyə sahələrində yüksək keyfiyyətə nail olmaqdır. Məhz bunun nəticəsidir ki, bu il respublikamızın üç bölgəsində tibb kollecləri fəaliyyətə başlamışdır.

Azərbaycan təhsili və səhiyyəsinin uğurlarından söhbət açan E.Ağayev demişdir ki, son 10 ildə əsaslı təmir olunmuş və yeni tikilmiş 600-dək tibb müəssisəsi açılaraq xalqımızın istifadəsinə verilmişdir. O, son beş ildə 2 mindən çox məktəb binasının da istifadəyə verildiyini qeyd etmişdir.

**YAP-ın Nəsimi rayon təşkilatının sədri, Milli məclisin deputatı Məlahət İbrahimqızı** Azərbaycan Tibb Universitetinin ölkəmizdə və xaricdə böyük nüfuza malik olduğunu, bu təhsil müəssisəsinin xalqımıza yalnız bacaraqlı tibbi kadrlar deyil, həm də görkəmli şəxsiyyətlər bəxş etdiyini dilə gətirmişdir. O, qeyd etmişdir ki, indi Tibb Universitetinin məzunlarının sorağı dünyanın inkişaf etmiş bir çox ölkələrindən gəlir. Və bu da şübhəsiz ki, mənim də məzunu olduğum doğma universitetimizə həmişə baş ucalığı gətirib.

**ATU- nun biofiziki və bioüzvi kimya kafedrasının müdiri, akademik Dilqəm Tağıyev və I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramov** da tələbələrin yüksək təhsil almaları üçün Tibb Universitetində hər cür şəraitin yaradıldığını bildirmiş, bu peşənin məsuliyyətini dərk edərək əzmlə çalışmağı tövsiyə etdilər. Bu gün ATU-nun böyük maddi-texniki bazaya malik olduğunu vurğulayan natiqlər gənclərə tövsiyə etdilər ki, əsil vətəndaş olmaq üçün təkcə savad azdır, həm də milli-mədəni sərvətlərimizi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

**700 balla ATU-nun tələbəsi adını qazanan Prezident təqaüdçüsü İlkin Məmmədzadə** I kurs tələbələri adından gələcək müəllimlərinə təşəkkürünü çatdırmış, daim bu ali təhsil ocağının adını ucaldacağına və müəllimlərinin etimadını doğruldacağına söz vermişdir.

Tədbiri yekunlaşdıran akademik Ə.Əmirasdanov tələbləri bir daha təbrik edərək bildirdi ki, bu il həm də bizim üçün ona görə əlamətdardır ki, Prezident təqaüdçüləri arasında reytinq cədvəli üzrə həmişə olduğu kimi yenə də birinciyik. Bununla da Prezident təqaüdçülərinin 1/4 -i bizim universitetin payına düşür.

Sonda rektor AMEA-nın üzvlüyünə seçilən əməkdaşları bir daha təbrik edərək onlara xüsusi hədiyyəsini təqdim etdi. Bundan başqa Prezident təqaüdünə layiq görülən 25 tələbənin hər birinə tələbə bileti və qiymət kitabçası ilə birlikdə akademik Əhliman Əmiraslanovun müəllifi olduğu «Onkologiya» dərsliyi hədiyyə olundu.

**MƏNSUR**

## TİBBİ ŞURANIN GENİŞLƏNDİRİLMİŞ TOPLANTISINDA

**Sentyabrın 11-də Tədris Terapevtik Klinikanın tibbi şurasının növbəti genişləndirilmiş toplantısı olub. Tibbi personalın qatıldığı toplantını klinikanın direktoru, professor Surxay Musayev açaraq ilk növbədə klinikada yaradılan şəraitə, əməkdaşlara göstərilən qayğıya görə ölkə və universitet rəhbərliyinə təşəkkürünü bildirib.**

Klinikanın direktoru diqqəti ötən ilin müvafiq dövrü ilə müqayisədə qazanılan uğurlara yönəldib. Göstəricilərin nəzərə çarpacaq dərəcədə yüksəldiyini vurğulayaraq qeyd edib ki, keçən il klinikamıza 3000 xəstə müraciət etmişdisə, bu il



mürciət edənlərin sayı 4600-ə çatıb. Xəstələrin müayinə və müalicəsinin təşkili, həkimlərin nəzəri və təcrübi biliklərinin artırılması, ixtisaslaşması, rezidentlərin rotasiyası, təcrübə kursları və tibb bacılarının peşəkarlığının artırılması 2014-cü ildə başlıca hədəfimiz olub. Eyni zamanda dərs otaqlarının yeni dərs ilinə hazırlanması işi başa çatdırılıb, gələcəkdə mobil tipli tədrisə keçid və ixtisaslaşmış şöbələrin yaradılması nəzərdə tutulub.

Universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev tədris



prosesinin aparılmasında ciddi islahatlara zərurət yarandığını diqqətə çatdıraraq bildirib ki, bu günün tələbəsi artıq 10-15 il əvvəlki tələbə deyil. Dünyaya çıxışları olan müasir tələbələri köhnə qaydada aparılan mühazirələrlə razı salmaq çox çətindir. Xüsusən kliniki kafedralarda Boloniya prosesinin tələbləri kifayət qədər gözlənilməli, testlərin tərtibçiləri cari mənimsəmənin nə qədər olması, bacarıqlara görə balların necə qiymətləndirilməsi, dərs buraxmaya görə hansı balların çıxılmasına aid sualları cavablandırmaqda çətinlik çəkməməlidirlər. Bütün bunlara görə ilk növbədə kafedra müdirləri məsuliyyət daşıyırlar.

Tədris Terapevtik Klinikada rezidentlərlə işin yüksək səviyyədə təşkil olunduğunu deyən S.Əliyev vurğulayıb ki, əgər Avropa təhsil sisteminə inteqrasiyadan danışırıqsa, aparılan mühazirələrin, məşğələ dərslərinin qaydalarını dəyişməli, dünyada baş verən yeniliklərin gecikmədən universitetimizdə tətbiqinə nail olmalıyıq.

Universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev də müşavirədə çıxış edərək Universitetimizə qəbul olunan tələbələrin səviyyəsinin yüksəlməsi ilə professor-müəllim heyətinin qarşısına qoyulan tələblərin də artdığını deyib. Bildirib ki, orta məktəbi əla qiymətlə bitirən məzunların böyük əksəriyyəti bizim universiteti seçirsə, deməli, üzərimizə böyük məsuliyyət düşür. Təsadüfi deyil ki, bu fərqlənməni ölkə rəhbərliyi də həmişə diqqətdə saxlayır. Son bir neçə ildə iki möhtəşəm klinikanın tikilib istifadəyə verilməsi bir tərəfdən universitetimizə olan diqqət və qayğının bariz nümunəsidirsə, digər tərəfdən qarşımıza qoyulan çox ciddi tələbdir. Əgər ən müasir avadanlıqlarla təchiz olunmuş kliniklar yardadılıbsa və qəbul imtahanlarında ən yüksək bal toplayan tələbələrin 60-70 faizi bizim universitetə qəbul olunubsa əsas vəzifəmiz həmin tələbələri yüksək mütəxəssis kimi yetişdirməkdir.

**A.KAMRANOĞLU**

## 2014/2015-ci tədris ilində ATU-ya daxil olmuş Prezident təqaüdçüləri

**I Müalicə-profilaktika fakültəsi üzrə**

Qasımov Nicat Nazim oğlu
Mahmudov Şəmisdan Akim oğlu
Əlizadə Fidan Rüfət qızı
Qüdrətli Qəmər Əhməd qızı
Əzizzadə Nazim Mirzə oğlu
Süleymanova Fəridə Azər qızı
Ağabəyova Xanım Məmməd qızı
Eminov Kənan Zabil oğlu
İsgəndərova İlahə Sahib qızı
Məmmədrzayeva Gülnar Ehtibar qızı
Nağıyeva Arzu Qulu qızı
Novruzov Elmar Eldar oğlu
Məhərrəmov Taleh Qardaşxan oğlu

**II Müalicə-profilaktika fakültəsi üzrə**

Məmmədzadə İlkin Rəfael oğlu
Alpaşayev Vüqar Kazım oğlu
Həmidli Fərid Kamil oğlu
İmaməliyev Elnur Müşfiq oğlu
Qasımova Lamiyə Elman qızı
Xəlilov Oruc Şəmsəddin oğlu
Xurşudova Minayə İbrahim qızı
Əsgərbəyli Aygün Əliağa qızı
Süleymanova Afina Rasim qızı
Quliyev Fuad Firudin oğlu
Məmmədova Günel Murad qızı
Tağıyeva Təranə Şükür qızı

## KAFEDRALAR "TİBB ŞƏHƏRCİYİ"NDƏ CƏMLƏNDİ



***Yeni tədris ilindən etibarən Azərbaycan Tibb Universitetində tələbələrin rahatlığına imkan verən daha bir yenilik tətbiq edilir. Belə ki, bu ildən başlayaraq tələbələrin dərsləri əsasən Universitetin „Tibb şəhərciyi"ndə yerləşən klinikalarda və tədris binalarında keçiriləcək.***

Əvvəlki illərdə ATU tələbələri tədris proqramı ilə əlaqədar şəhərin müxtəlif istiqamətlərindəki xəstəxanalarda yerləşən kafedralara getməli olurdular. Bu isə tələbələr üçün narahatlıq yaradır, bəzən onların dərslərə gecikməsinə səbəb olurdu.

Artıq tələbələrin yüksək səviyyəli təhsil alması üçün zəruri olan tədris kafedraları ATU-nun „Tibb Şəhərciyi"ndə yerləşən, ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş və yüksək tibbi xidmətin göstərildiyi klinikaların nəzdində fəaliyyət göstərməyə başlayıb.

Beləliklə, ATU-da tələbələrin tədris proqramını tam əhatə etməyə imkan verən kafedralar artıq „Tibb Şəhərciyi"ndə birləşib. Bu isə tələbələrin daha çox vaxta qənaət etməsinə, diqqəti təhsilə yönəltməyə, onların rahatlığına şərait yaradır.

Hazırda „Tibb Şəhərciyi"ndə Tədris Terapevtik Klinika, Tədris Cərrahiyyə Klinikası, Onkoloji və Stomatoloji klinikalarla yanaşı, həmçinin 5 əlavə tədris binası da fəaliyyət göstərir.

## TƏLƏBƏLƏRİMİZ ALMANİYADA YAY PRAKTİKASINDAN QAYIDIB

***Azərbaycan Tibb Universitetinin tələbələri universitetini maliyyə dəstəyi ilə xarici ölkələrdə müxtəlif proqramlarda iştirak edirlər. Bu cür təlimlər tələbələrə öz bilik və bacarıqlarını daha da artırmağa, praktika qazanmağa yardımçı olur.***

Pediatriya fakültəsinin 5-ci kurs tələbəsi Fidan Əsədzadə bu il yay praktikasını Almaniyada keçib. Fidan Əsədzadə Norolhorn şəhərinin EUREGİO klinikasında təcrübə keçib. Kardiologiya şöbəsində praktikada ikən müxtəlif prosedurlarda iştirak edib, exokardioqramma, angioqrafiya çıxarıb: „Çox sevindirici haldır ki, bizim texnoloji avadanlıqlarımız baxımdan Almaniyadan geri qalmadığımızı deyə bilərəm. Əsas fərq yalnız təhsil sisteminin və işin qurulmasındadır".



Fidan deyir ki, Almaniyada praktika keçməyi həmişə arzulayıb: „Mən öz xəyalımı məhz ATU rəhbərliyinin dəstəyi sayəsində gerçəkləşdirə bildim. Bu işdə universitetin beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəhimə Qabulovadan böyük yardım gördüm. Göstərilən qayğıya görə həmçinin ATU rektoru Əhliman Əmiraslanova Almaniyadakı klinikanın rəhbərliyinə təşəkkür edirəm".



Yay praktikasını Almaniyada keçən digər tələbə - Müalicə işi fakültəsinin 4-cü kursundan Samirə Səlimovadır. O, iyulun 2-dən avqustun 1-nə kimi EUREGİO klinikasının ümumi cərrahiyyə şöbəsində praktika keçib. Dediyinə görə, alman dilini yaxşı bilməsi ona seçimində yardımçı olub: „Orada əməliyyatlarda assistent kimi iştirak etdim. Bir çox əməliyyatların sonunda mənə tikiş qoymağa, digər bu kimi müdaxilələr etməyimə icazə verdilər. Xəstələrlə təmas qurmaq çox işimə yaradı, daha çox şey öyrəndim. Düzdür, klinikaların təchizatında, həkimlərin bilik səviyyəsində bizim onlardan elə də çox fərqimiz yoxdur, sadəcə yanaşma tərzi fərqlidir. Məncə, insan hər yerdə nəyisə öyrənə bilər".

Samirə və Fidan Tibb Universitetinin köməyilə Almaniyada praktika keçdiklərinə görə ATU rəhbərliyinə, xüsusilə rektor Əhliman Əmiraslanova bir daha təşəkkür edir, Almaniyada yaradılan imkanlara görə EUREGİO klinikasının təmsilçilərinə, o cümlədən ümumi cərrahiyyə şöbəsinin baş həkimi Nevzat Doğana, həmyerlimiz Rüfət Məhərrəmova təşəkkür edirlər.

**ATU-nun mətbuat xidməti**

*Azərbaycan regionun yüksək templə inkişaf edən ölkəsi kimi tanınmaqdadır və bu inkişaf demək olar ki, cəmiyyətin bütün sahələrini əhatə edir. İnsan faktorunu daim irəli çəkən dövlətimizin bu baxımdan təhsilə, səhiyyəyə xüsusi diqqət ayırması da xalqımız tərəfindən həmişə rəğbətlə qarşılanır. Səhiyyədən söhbət açanda isə ilk növbədə Azərbaycan Tibb Universitetinin yada düşməsi də təbiidir. Təsadüfi deyil ki, Azərbaycanda yeganə olan bu ali tibb ocağının əhalinin sağlamlığının qorunmasında əvəzsiz xidmətləri var. Son illərdə uğurları nəzərəçarpacaq dərəcədə artan universitetimizdə yeni klinikaların istifadəyə verilməsi ayrıca səhifədir. Bu səhifədə özünəməxsus yer tutan, möhtəşəmliyi ilə seçilən hələlik sayca 4-cü klinika Tədris Cərrahiyyə Klinikasıdır. Cəmi bir neçə aydır ki, xəstələri qəbul edən klinika artıq oturuşmuş klinikalarla sağlam rəqabət aparmaq imkanına malikdir.*

*Elə biz də yeni tədris ilinin başlanması ərəfəsində yolumuzu klinikadan salaraq təəssüratlarımızı oxucularla bölüşmək qərarına gəldik.*

**klinikanın laboratoriya müdiri Yavər Hacıyev** diqqətimizə çatdırır:

- *Burada götürülən analizlər çoxçeşidlidir. Biokimyəvi, hematoloji analizlər, immunolji, sistoloji, bakterioloji, molekulyar analizlər tam dəqiqliyi ilə aparılır. Laboratoriyamızda istifadə olunan cihaz və avadanlıqlar dünyada öz təsdiqini tapmış referans cihazlardır. Referans laboratoriyalar inkişaf etmiş ölkələrdə necə çalışırsa, biz də o şəkildə çalışırıq. Bütün günü testlərə kontrol qoyuruq. Burada olan analizlər dəfələrlə olub ki, xaricdə də öz təsdiqini tapıbdır. Günü-gündən laboratoriyada müayinə olunmaq istəyənlərin sayı artır. Bu da ona dəlalət edir ki, bizim qoyduğumuz diaqnoz dəqiq və etibarlıdır. Gün ərzində çoxsaylı müayinələr aparılır ki, bu da yeni qurulmuş klinika üçün yaxşı göstəricidir. Analizin nəticələrini növündən asılı olaraq 15-20 dəqiqəyə müəyyən etmək olur. Almaniya və Yaponiya istehsalı olan cihazlardan istifadə edirik.*



## Klinika haqqında qısa arayış:

**2013-cü il sentyabrın 12-də Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının açılışı olub. Açılış mərasimində prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak edib.**

**Dövlət başçısı klinikanın rəmzi açılışını bildirən lenti kəsib.**

**Klinikada tədrislə yanaşı, əhaliyə yüksək diaqnostik və cərrahi müalicə-tibbi yardım da göstərilir. Klinikada ümumi cərrahiyyə, uşaq cərrahiyyəsi, döş qəfəsi cərrahiyyəsi, oftalmologiya, travmatologiya, neyrocərrahiyyə və digər şöbələr fəaliyyət göstərir. Tibb müəssisəsi müxtəlif cərrahi əməliyyatlar aparmaq üçün ən müasir avadanlıqla təchiz edilib.**

**Klinikada cərrahi və diaqnostik istiqamətlərdə kafedralar və şöbələr fəaliyyət göstərir. İl ərzində burada 2 min 800 tələbənin, 400-dən çox rezidentin, 20-dən artıq doktorantın cərrahi ixtisaslı fənlər üzrə tədrisi ilə professional bir heyət məşğul olur.**

**Klinikada üç min kvadratmetr ərazidə xüsusi cihazlar və simulyasiya aparatları ilə təchiz olunmuş tədris-treninq mərkəzi yaradılıb. Bu tibb ocağında həm diaqnostik müayinələr aparılır, həm də endoskopik əməliyyatlar icra edilir. Orijinal memarlıq üslubunda inşa edilən 13 mərtəbəli binanın həyətində geniş abadlıq-quruculuq işləri aparılıb.**

# MDB MƏKANINDA ƏN MÖHTƏŞƏM



## "Əsas hədəflərimizdən biri də bura gələn hər xəstənin bizdən məmnun və razı qalmasıdır"

Bizi klinikanın girişində mühafizə xidmətinin əməkdaşı qarşılayır və görüşəcəyimiz insanlarla əlaqə saxlamaq üçün qeydiyyat aparan qızlara yaxınlaşmağımızı məsləhət görür. Qısa müddətdə kimlərlə görüşəcəyimizi bir daha dəqiqləşdirib ikinci mərtəbəyə qalxırıq. Yeri gəlmişkən, xatırladaq ki, digər klinikalarda reportaj hazırlayarkən bələdçimiz həmişə tibb işçiləri olub. Bu dəfə isə fərqli mənzərə ilə rastlaşırıq. Yəni ilk həmsöhbətimiz klinikanın ixtisasca həkim olmayan **baş meneceri Bayram Küçük** olur:

- *Xəstəxana fəaliyyəti özəl bir fəaliyyətdir. Tutaq ki, həkim xəstəni müayinə və müalicə etmək üçün təhsil alır və öyrənir. Ona xəstəxananı idarə etmək məsələsi öyrədilmir. Bu məsələ ilə məşğul olan bir şəxs kimi onu deyə bilərəm ki, menecer qida təminatı və personalın idarə edilməsi vəzifəsini yerinə yetirir. Amma xəstəxananın idarə edilməsi digərlərindən həm fərqli, həm də çətindir. Adicə xəstələr üçün yeməklərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Hər bir xəstənin durumunu qarşılayacaq yeməklər hazırlanmalı və onlara verilməlidir. Təsəvvür edin, qida qaydalara uyğun olaraq hazırlanmazsa bu, xəstənin ölümünə belə səbəb ola bilər.*

*Sterilizasiya məsələsi ciddi önəm daşıyır. Bütün alətlər ideal sterilizasiya olunmazsa xəstənin yoluxduğu hansısa virusdan ölmək ehtimalı yüksələr.*

*Cərrahiyyə klinikası olaraq bizdə 3-cü mərtəbə tamamilə əməliyyatlar üçün ayrılıb. Ən ağır əməliyyatları burada həyata keçirə bildik. Həkimlərimizin əksəriyyəti yüksək hazırlıqlı, savadlı və təcrübəli həkimlərdir. Onlar bir çox ağır əməliyyatları uğurla həyata keçirməyə qadirdirlər. Burada işləyən hər kəs klinikanın daxili qaydalarına riayət edir. Burada konfranslar və kurslar təşkil edir, tələbələri, həkim və tibbi personalı hazırlayırıq. Bilgi və başarılarını daha da təkmilləşdirmək məqsədi ilə tibb bacılarını Türkiyəyə göndərir, bunun da müsbət nəticəsini görürük.*

*Əsas hədəflərimizdən biri də bura gələn hər xəstənin bizdən məmnun və razı qalmasıdır. Pasiyentlər ilk olaraq düşünsünlər ki, bir insan olaraq bizə xoş münasibət göstərdilər, sonra müalicə etdilər. Burada işləyən hər kəs klinikaya daxil olan pasiyenti doğması, yaxını kimi qarşılamalıdır. Bunu pasiyentlərlə görüşünüz zamanı da müəyyənləşdirə bilərsiniz. Bizdə sorğu və təkliflər kitabçası da var. Onlar buradan çıxanda tərtib etdiyimiz anketləri doldururlar. Anketdə klinikamızdan kimin məmnun qalıb-qalmadığı öz əksini tapır. Öz fəaliyyətimizi bununla kontrol edirik. Çalışırıq ki, pasiyentlərimizi klinikamızdan narazı salmayaq.*






## Effektli müalicə, uğurlu əməliyyat xəstəyə qoyulan diaqnozun dəqiqliyindən birbaşa asılıdır

Sonra elə Bayram bəyin bələdçiliyi ilə şöbələrə baş çəkirik. Əməliyyata hazırlanan, əməliyyatdan çıxan pasiyentlərin durumu ilə maraqlanır, onların təəssüratlarını öyrənməyə çalışırıq.

**Arzu Aslanov (pasiyent):**

- *Əməliyyata hazırlıq mərhələsindəyəm. Bağırsaqda problemim var. Bizi burada gülərüzlə qəbul ediblər. Cərrahların peşəkarlığı haqqında çox eşitmişəm və əməliyyatın uğurla aparılacağına inanıram. Heç bir narahatçılığım yoxdur.*

**Ağstafa rayonundan gələn 83 yaşlı Məmməd Mansurov** şəkərli diabetdən əziyyət çəkdiyini, iki aydır ki, müalicə olunduğunu deyir. Buradakı xidmətdən, yaradılan şəraitdən, professor Mübariz Əliyevin, tibb bacılarının qayğısından razılıqla danışır.

Pasiyentlər klinikanın baş tibb bacısı Aygün Şahbazova başda olmaqla bütün tibb bacılarının xoş rəftarından da məmnunluqla söz açdılar.

Heç kəsə sirr deyil ki, effektli müalicə, uğurlu əməliyyat xəstəyə qoyulan diaqnozun dəqiqliyindən birbaşa asılıdır. Ona görə də istənilən klinikanın, müalicə müəssisəsinin nüfuzuna müayinə aparatlarının markası və həmin aparatların dilini yaxşı bilən yetərincə hazırlıqlı mütəxəssislərin olması güclü təsir göstərir. Bu baxımdan da işlərin yüksək səviyyədə qurulduğunu



## "İndiyədək yüzlərlə əməliyyat icra olunub, minlərlə xəstə müalicə edilib"

Məhdud vaxt çərçivəsində klinikanın bir günlük fəaliyyətini tam işıqlandırmağın mümkünsüzlüyünü bildiyimizdən imkan daxilində bütün şöbələri, müayinə və müalicə otaqlarını, tədris auditoriyalarını da gəzdik ki, ümumi mənzərə haqqında təsəvvürümüz olsun. Səliqə-səhmandan tutmuş texniki təchizatla təminata qədər gördüklərimizdən bu qənaətə gəldik ki, artıq müasir dünya standartlarına tam cavab verən yeni bir müalicə müəssisəsi insanların xidmətindədir. **Klinikanın baş həkimi Asiman Həsənovun** söylədikləri bu qənaətimizi daha

# TƏDRİS CƏRRAHİYYƏ KLİNİKASI

da möhkəmləndirdi:

*- Azərbaycan Tibb Universitetinin bazasında klinikaların, o cümlədən Tədris Cərrahiyyə Klinkasının yaradılması tibb ictimaiyyətinə və ölkə əhalisinə böyük töhfədir. Gördüyünüz kimi, klinika fiziki görkəmi, həcmi və böyüklüyü, avadanlıqları, tibbi təchizatı ilə fərqlənir.*

*Qeyd edim ki, şəhərin müxtəlif yerlərində yerləşən bazalar arasında müəllimlərin və tələbələrin vaxtı itirdi. Bəzən dərslərə çatmır, yorulurduq. Kafedraların əməkdaşları bir-birini tanımayacaq dərəcədə uzaq düşürdülər. Universitet klinikalarının bir üstünlüyü də kollektivi bir araya toplamaqdır.*

*Tibbdə kifayət qədər inkişaf yeni metodların tətbiqini qaçılmaz edir, xarici ölkələrlə əlaqələrimiz formalaşır. Uzaq olduğuna görə qonaqlarımızı bazalara apararaq görüşlər təşkil edə bilmirdik. Hansısa elmi, əməliyyat, müalicə işlərini aparmaqda da çətinlik çəkirdik.*

*Biz bir çox xarici ölkələrin universitet klinkalarında oluruq. Rahat şəkildə deyə bilərik ki, hörmətli rektorumuz, akademik Əhliman Əmiraslanovun gərgin zəhməti və səyi nəticəsində klinikamız inkişaf etmiş ölkələrin tanınmış universitet klinkaları ilə yanaşı duran möhtəşəm bır klinikaya çevrilmişdir.*

*Digər üstünlük isə rezidentura təhsili ilə əlaqədardır. Nəzərinizə çatdırım ki, möhtərəm Prezidentimiz İlham Əliyev klinikanın açılış tədbirində çıxışında xaricdə təhsil almış şəxsləri bura cəlb etməklə yanaşı, öz mütəxəssislərimizi özümüzün yetişdirməyimizi tövsiyə etmişdi. Artıq bir neçə ildir ki, rezidentura təhsilinə başlamışıq. Əsas istəyimiz odur ki, rezidentlərimiz rezidenturanı professional səviyyədə bitirsinlər. Hazırda rezidentlər əməliyyatlarda, xəstələrin müayinə və müalicəsində iştirak edirlər ki, zaman-zaman bunun bəhrəsini görəcəyik. Xəstələrə keyfiyyətli, əsaslandırılmış tibbi xidmət göstərmək əsas vəzifə kimi qarşımızda durur. Xəstə məmnuniyyətininin yaradılması həkim-xəstə münasibətlərini artıq başqa məcraya yönəldir.*

*Biz bilirik ki, bura referans mərkəzdir. Respublikanın müxtəlif regionlarında fəaliyyət göstərən tibb müəssisələrində çətinlik və problemlə qarşılaşan həkimlər və ya xəstələr bizə müraciət edirlər. Biz isə onlara əsaslandırılmış düzgün tibbi izahat verməli, tibbi xidmət göstərməliyik. Fəaliyyət göstərdiyimiz vaxtdan indiyədək yüzlərlə əməliyyat icra olunub, minlərlə xəstə müalicə edilib. Lazımi diaqnozlar qoyulub və müalicə tədbirləri aparılıb. Həmçinin sosial əhəmiyyət kəsb etmiş əməliyyatlar da olubdur. Bu yaxınlarda bir anada dölün inkişaf qüsuru aşkar olunmuşdu. Həkimlərimizin səyi nəticəsində döl son dövrlərə qədər qorunub saxlanmışdı. Mövcud qüsurlar aradan qaldırılmış, bütün göstəricilər bərpa edilmişdir.*

*Başqa sahələrdə də demək olar ki, maraqlı və böyük əməliyyatlar icra olunur.*







## "Bu sahədə nə Almaniya, nə də Türkiyədən geri qalırıq"



Klinikada olduğumuz müddətdə iki əməliyyat barədə də müfəssəl məlumat aldıq və həmin məlumatları qısaca olaraq oxucularımızla bölüşmək istədik.

Birinci əməliyyat barədə **tibb elmləri üzrə fəlsəfə doktoru Cəfər Nəsirlinin** dedikləri:

*- Tarverdi adlı pasiyentimiz 6 yaşında olarkən yıxılmış, dirsəyi sınmışdı. Dirsək sınığı dəridən görünürdü. Bu tipli sınıqlara uşaqlarda tez-tez rast gəlinir. Amma bu fəsadlaşmış sınıq idi. Biz həmin an xəstəyə baxdıq, Quba rayonundan idi. Sonra biz onu müayinə etdikdə məlum oldu ki, xəstədə həm də damar və sinir problemi vardır. Sınmış sümük damarı zədələmişdi. Qərar verdik və gecə ilə əməliyyata başladıq. Sınığı bərpa etdik və öz damarından götürüb o birinə transfer etdik. Əməliyyat çox uğurla həyata keçdi. Hal-hazırda həmin uşağın tam hərəkəti bərpa olunub. Hərdən gəlib bizə də baş çəkir.*

*Türkiyə ilə daim əlaqə saxlayır, tibbi konfranslara gedirəm. Rəhbərlik etdiyim şöbədə dünyada aparılan bütün ortopetik əməliyyatları həyata keçirmək mümkündür. Süni oynaqların köçürülməsi, skolioz, bel sınıqları, artroskopik, endoskopik, boy uzatma, tendon transferləri, uşaqlarda anadangəlmə çıxıqlar və s. əməliyyatlar aparılır. Sadaladıqlarım əməliyyatların hamısında ən son üsullar tətbiq edilir. Bu sahədə nə Almaniya, nə də Türkiyədən geri qalırıq. Çox böyük müvəffəqiyyətlə bu tip əməliyyatları edə bilirik.*





İkinci əməliyyat barədə isə **uşaq cərrahiyəsi şöbəsinin müdiri, dosent Ramiz Poluxov** məlumat verir:

*- Körpə bətndaxili 5-ci ayında anası klinikamıza müraciət etmişdi. İnkişaf qüsurlarını bətn daxilində müasir avadanlıqların köməyi ilə aşkar etmək olur. Uşaq cərrahı olduğumuza görə ginekoloqlar belə xəstələri həmişə bizə yönləndirirlər. Biz də baxıb nəzarət altında saxlayırıq. Kamilə Quliyeva bizə müraciət etdikdən sonra xəstədə baş verən prosesi əvvəldən axıra qədər izləməli olduq. Əksər hallarda bu cür hamiləlik dövründə doğuş erkən baş verir. Həm də körpə çox kiçik çəki ilə doğulur. Turab həkimin səyi nəticəsində biz onu 37 həftəyədək gətirib çıxara bildik. Körpədə on iki barmaq bağırsağın atreziyası bağlı idi. Əsasən keçiricilik olmadığına görə, uşaqda dölyanı maye həzm traktından keçmir. Maye həddən artıq çox olur. Təzyiqin hesabına doğuş erkən olur. Erkən doğuşda körpənin çəkisi 1-1.2 kq olur. Amma uşaq 2.2 kq doğuldi. Belə uşaqlar üçün bu yaxşı çəkidir.*

*Bağırsaq keçməzliyi əməliyyat nəticəsində aradan qaldırıldı. Ağciyərində də patologiya var idi. Bu da aradan qaldırılmaq ərəfəsindədir.*





Körpənin valideynləri **Qəfər Qəfərov və Kamilə Quliyevanın** sevinci isə sözün əsl mənasında yerə-göyə sığmır:

*- İlk öncə Turab həkimə, Ramiz həkimə təşəkkür edirik. Əziyyəti olan tibb bacıları sağ olsunlar. Tibb bacısı Aytən xanıma xüsusi minnətdarlığımızı bildiririk. Sevincimizin həddi-hüdudu yoxdur, hisslərimizi ifadə etməyə söz tapmırıq. Bizə bu xoşbəxtliyi yaşadan şəfqətli insanlara Tanrıdan səadət dolu illər arzulayırıq!*

(davamı səh. 8-də)

MÜSAHİBƏ



**Fərəhləndirici haldır ki, Azərbaycan Tibb Universitetində dünyaca məşhur olan alimlərimiz çalışır. Onların rəhbərliyi altında tibb sahəsində xeyli alimlər yetişir və fəliyyətləri ilə tibb elminə özlərinin töhfələrini verirlər. Belə qürurverici alimlərimizdən biri də bu yaxınlarda AMEA-nın müxbir üzvü seçilən, mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Zakir Qarayevdir. Zakir müəllim 10 ildən çoxdur ki, adıçəkilən kafedraya yorulmadan rəhbərlik edir.**

# Z.QARAYEV: “Kafedramızın müəllimləri ATU-nun ictimai həyatında aparıcı qüvvəyə çevrilib”

**Ömürnaməsindən arayış:**

Zakir Ömər oğlu Qarayev 1941-ci ildə Qərbi Azərbaycanın Dilican mahalının Göyərçin kəndində müəllim ailəsində anadan olub. Z.Qarayev gənc həkim kimi əmək fəaliyyətinə Qərbi Azərbaycanın Göyçə mahalında başlayıbdır. Lakin elmə olan böyük marağı onun ATU-ya qaytmasına səbəb olub. Aspirantura və doktorantura təhsillərini başa vuran Z.Qarayev 33 yaşında tibb elmləri doktoru alimlik dərəcəsi alıb. O, 1968-ci ildən 1974-cü ilədək Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Mərkəzi Elmi Tədqiqat Laboratoriyasının direktoru, 1974-cü ildən 1975-ci ilədək Leninqrad (Sankt-Peterburq) Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi-Tədqiqat Laboratoriyasında baş elmi işçi, 1975-ci ildən 1982-ci ilə qədər Leninqrad Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi-Tədqiqat Laboratoriyasında direktor vəzifələrində çalışıbdır.

1982-ci ildə SSRİ Səhiyyə Nazirliyinin və Ümumdünya Səhiyyə Təşkilatının Mikologiya və Dərin Mikozlar Elmi Mərkəzinin (Hazırda Rusiya Federasiyası Elmi Tədqiqat Mikologiya İnstitutu adlanır) direktoru vəzifəsinə təyin edilib və 1993-cü ilə qədər bu vəzifədə çalışıbdır.

Z.Qarayev səhiyyə sahəsində ümumittifaq və dünya əhəmiyyətli instituta uzun müddət rəhbərlik edən çox az sayda azərbaycanlı alimlərdən hesab olunur. Müstəqillik qazandıqdan sonra vətənə qayıdan Zakir müəllim 1993-cü ildən 1994-cü ilə qədər Azərbaycan Respublikası Elmi-Tədqiqat Mikrobiologiya, Virusologiya və İmmunologiya İnstitutunun direktoru vəzifəsində, 1998-ci ildə İstanbul Universitetinin tibb fakültəsində çalışıb. Sonra isə ATU-nun mikrobiologiya və immunologiya kafedrasına professor vəzifəsinə işə dəvət edilib və 2001-ci ilə qədər bu vəzifədə çalışıbdır.

Professor Z.Qarayev 2004-cü ildən indiyə qədər Azərbaycan Tibb Universitetinin mikrobiologiya və immunologiya kafedrasının müdiri vəzifəsində işləyir.

O, dünyanın demək olar ki, əksər ölkələrində elmi ezamiyyətlərdə olub, bir çox universitet, konqres və simpoziumlarda ingilis və alman dillərində mühazirələr oxuyubdur. SSRİ-də 3 dəfə dünya miqyaslı konqres təşkil edən professor Z.Qarayev dünyanın ən məşhur elm xadimləri ilə əməkdaşlıq edib və hazırda bu əməkdaşlıq davam etdirilir. Təsadüfi deyildir ki, 2009-cü il oktyabrın 1-dən 4-dək Bakıda təşkil olunan və 23 ölkədən 300-dən çox alimin qatıldığı 3-cü Avrasiya Klinik Mikrobiologiya, İmmunologiya və İnfeksion Xəstəliklər Beynəlxalq Konqresinin prezidenti kimi konqresin təşkilində böyük rolu olub.

Z.Qarayev 300-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın, 2 iri həcmli dərsliyin və bir dərs vəsaitinin müəllifidir. Görkəmli həkim və alim Tamerlan Əziz oğlu Əliyevlə birlikdə yazdığı “Tibbi Mikologiya” adlı kitab dünyada mikoloji xəstəliklərə dair yazılmış unikal əsərlərdəndir.

Onu xüsusi vurğulamaq lazımdır ki, Z.Qarayevin dünyanın müxtəlif elmi jurnallarında nəşr olunmuş 63 elmi əsərinin xülasəsi ABŞ-ın Milli Səhiyyə İnstitutunun Milli Tibb Kitabxanasının rəsmi saytı olan www.pubmed.gov internet portalında yerləşdirilmişdir. Qeyd edək ki, çox az sayda azərbaycanlı tibb aliminin əsərləri burada yayımlanır.

Z.Qarayevin rəhbərliyi altında 67 elmlər namizədi, 18 elmlər doktoru yetişibdir. Onun yetişdirdiyi və bu gün də böyük minnətdarlıq hissi ilə professor Z.Qarayevlə hər zaman yaxın ünsiyyətdə olan bu alimlərin coğrafiyası dünyanın 20-dən çox ölkəsini əhatə edir.

Z.Qarayev eyni zamanda dünyanın bir çox nüfuzlu elmi cəmiyyət və universitetlərinin akademiki və fəxri doktorudur. O, Nyu-York Akademiyasının həqiqi üzvü, Fransanın Sarbon, Yaponiyanın Siba Universitetlərinin fəxri doktoru seçilibdir.

2010-cu ildə professor Z.Qarayev Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən “əməkdar elm xadimi” fəxri adına layiq görülübdür.

## “Respublika üzrə dəqiq diaqnoz bizdə qoyulur”

*“- Mən kafedraya rəhbərlik etməmişdən öncə elmi işlərin səviyyəsi elə də kifayət qədər yüksək olmayıb. Bu gün qürurverici və fərəhləndirici şəkildə qeyd etməliyəm ki, kafedramızda unuversitetin yetişdirdiyi yüksək səviyyəli, qabiliyyətli və bacarıqlı tibbi mütəxəssislər çalışır. Burada çalışan 7 professordan 6-sı isə mənim yetirməmdir. Tam məsuliyyətimlə deyə bilərəm ki, mikrobiologiya və immunologiya üzrə respublikada dəqiq diaqnoz bizdə qoyulur və kafedramız artıq bu sahənin mərkəzinə çevrilir. Dəfələrlə şahidi olmuşuq ki, ölkə vətəndaşları İranda müayinə olunublar və bizdə İran mütəxəssislərinin düzgün diaqnoz qoymadığı bəlli olub.*

## “Kafedrada dərslər və mühazirələr elektron variantında aparılır”

**- Bəs yeni dərslik və dərs vəsaitlərinin hazırlanması barədə nə deyərdiniz?**

*- Doğrudur, əvvəllər dərs vəsaitləri ilə bağlı problemlərimiz olub. Zaman keçdikcə üzləşdiyimiz problemlər aradan qaldırılıbdır. Hazırda belə bir problem yaşamırıq. Çünki xeyli dərsliklər və dərs vəsaitləri çap olunub və tələbələrimiz tərəfindən yaxşı qarşılanıbdır . Bu dərsliklərdən Akif Qurbanov və Ramin Bayramlının həmmüəllifliyi ilə çap olunan “Tibbi mikrobiologiya və immunologiya”, T.Ə.Əliyev və A.İ.Qurbanovla birlikdə hazırlanan “Tibbi mikologiya” adlı dərs vəsaitlərini misal çəkə bilərəm. Bundan əlavə “Mikrobiologiya və immunologiya”dan test toplusu da işıq üzü görüb. Hazırda dərslər və xüsusən mühazirələr kafedrada elektron variantında aparılır. Dərsliklər Avropanın və inkişaf etmiş ölkələrin səviyyəsi nəzərə alınmaqla hazırlanıb. Rus dilində bu səviyyədə kitablar olmadığından bu bölmənin tələbələri belə də, bizim azərbaycan dilində yazılan kitablardan istifadə edirlər. İstehsalat müşavirəsində də dərsliklərimizin səviyyəsinin yüksək olması barədə fikirlər səslənir.*

**- Bəs bu günkü tələbələrin səviyyəsi sizi qane edirmi?**

*Əlbəttə.*

*Bizdə bilikli, bacarıqlı və qabiliyyətli tələbələr kifayət qədərdir. Onlarla söhbət etdikcə həvəslənir və qürur hissi keçirirsən.*

*Mən tələbə və yetirmələrimi çox sevir, onları çox istəyirəm. Onlardan biri kimi tibb elmləri doktoru, professor Akif Qurbanovun və digərlərinin adlarını çəkə bilərəm.*

*Təvazökarlıqdan uzaq olsa da, qeyd edim ki, rəhbərliyim altında müdafiə edənlərin 5 nəfəri hazırda Rusiya Elmlər Akademiyasının həqiqi üzvüdür. Bu gün kafedramızın işçilərinin universitetin ictimai həyatında aparıcı qüvvəyə çevrilməsi sevindirici haldır. Belə ki, hazırladığım kadrlar universitetin ictimai işlərində və idarə olunmasında iştirak edirlər. Bundan yaxşı hal nə ola bilər?*

*Bir il olar ki, universitetdə, o cümlədən də bizim kafedramızda peşə bacarıqlarının tədrisinə başlanmışdır. Əvvəlcə biz nəzəri hissəyə daha çox üstünlük verir, elə nəzəri bilikləri dəyərləndirməklə də işimizi bitmiş hesab edirdik. Axırda məlum olurdu ki, diplomlu həkim nəzəri cəhətdən məlumatlı və hazır olsa da, bacarıq sahəsində hazırlığı kifayət qədər deyil. Məsələnin bu tərəfini nəzərə alaraq və eyni zamanda Avropa ölkələrindən nümunə götürərək universitetimizdə bacarıqların tədrisi və qiymətləndirilməsinə başlanıldı. Bizim də istəyimiz odur ki, universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsində, burada aparılan elmi araşdırmaların dərinləşdirilməsi və genişləndirilməsi istiqamətində əlimizdən gələni edək.*

## “Bunu Azərbaycan elminə verilən yüksək qiymət kimi dəyərləndirirəm”

**- Zakir müəllim, Sizi AMEA-nın müxbir üzvü seçilməyiniz münasibəti ilə təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Bu barədə bizimlə təəssüratlarınızı bölüşməyinizi istərdik.**

*- Aldığım bu xəbər mənə çox xoş təəssürat bağışladı. Buna görə universitin rəhbərliyinə, akademik Əhliman Əmiraslanova və kollektivə dərin təşəkkürümü bildirirəm ki, mənim AMEA-nın müxbir üzvlüyünə seçilməyimlə bağlı namizədliyimi dəstəklədilər. Mən bunu Azərbaycan elminə və çəkilən zəhmətə verilən yüksək qiymət kimi dəyərlədirirəm.*

**Zakir müəllim bu gün də elmi kadrların hazırlanmasında, praktik səhiyyəyə kömək sahəsində yenə də yorulmadan əvəzsiz xidmətini göstərir. Məhz bir klinik mikrobioloq, mikoloq və immunoloq kimi onun dəyərli məsləhətləri ilə onlarla ağır xəstə şəfa tapıbdır. Onun Azərbaycan tibb elminin inkişafı, gənc kadrların hazlrlanmasında da fəaliyyəti danılmazdır, bu gün də yüksək enerji və həvəslə işini davam etdirir.**

**Qabil ZİMİSTANOĞLU**

# Ebola virusu: artan təhlükə və ümidlər

- **Afrikanın qərb ölkələrində - Qvineyada, Liberiyada, Sierra-Leonda və Nigeriyada Ebola virusunun törətdiyi epidemiya tüğyan etməkdədir. Epidemiya nəticəsində ölənlərin sayı 2000-ə çatır və hər gün artmaqda davam edir. Epidemiyanın yayılmasının qarşısını almaq üçün Ümumdünya Səhiyyə Təşkilatı müvafiq tədbirlər həyata keçirir.**



Ebola virusu ilə törədilən xəstəlik - Ebola hemorragik qızdırması ağır xəstəlik olub, təqribən 90% hallarda ölümlə nəticələnir. İnfeksiyanın təbii rezervuarı yarasalardır, insanlara yoluxan xəstəlik insandan-insana yoluxmaqla epidemiyalar əmələ gətirir.

Ebola qızdırması ilk dəfə 1976-ci ildə Konqoda (Afrika) Ebola cayı vadisindəki yaşayış məntəqəsində qeyd edilmişdir. Törədici virus RNT-tərkibli olmaqla Filoviridae (sapşəkilli viruslar) fəsiləsinin nümayəndəsidir. Ölçüləri 600-800 nm olan bu virus, xarici qişaya malik mürəkkəb quruluşludur, ultrabənövşəyi şüaların, fenol tərkibli dezinfektantların təsirinə həssasdır.

Xəstəlik insandan-insana xəstələrin qanı, ifrazatları və digər bədən mayeləri ilə təmasda olduqda, eləcə də bu mayelərlə bulaşmış əşyalarla yoluxur. Xəstəlikdən ölmüş heyvanların və insanların cəsədləri ilə təmas da xəstəliyin yoluxmasına səbəb olur. Virus damar endoteli hüceyrələrinə tropizmə malikdir.

Ebola qızdırmasının gizli dövrü 2 gündən 21 günədək davam edə bilər. Xəstəlk ağır, kəskin virus infeksiyasıdır, əsasən qızdırma, əzələ ağrıları və zəifliyi, baş və boğaz ağrısı əlamətlərilə qəflətən başlayır. Sonra qusma, ishal, qaraciyər və böyrəklərin funksiyasının pozulması, bəzi hallarda isə daxili və xarici qanaxmalar müşahidə edilir. Qanda qaraciyər fermentlərinin miqdarının artması, leykopeniya və trombositopeniya qeyd edilir.

Xəstənin qanında və ifrazatlarında virus olduğundan onlar yoluxucu olur. Bəzi məlumatlara görə virus xəstə orqanizmində 2 aya qədər saxlanıla bilir.

Xəstəliyi malyariya, qarın yatalağı, dizenteriya, vəba, leptospiroz, qayıdan yatalaq, hepatit və digər hemorragik qızdırmalardan fərqləndirmək lazım gəlir. Diaqnoz ancaq laborator müayinələrin nəticələrinə görə qoyulur və xəstələrin qan zərdabında virus antigenlərinin və onlara qarşı spesifik anticisimlərin immunoferment analizlə təyini, zəncirvarı polimeraza reaksiyası (PCR), eləcə də virusun hüceyrə kulturalarında əldə edilməsinə əsaslanır.

Hazırda Ebola qızdırmasının müalicə və profilaktikası üçün spesifik preparatlar mövcud olmasa da bu istiqamətdə tədqiqatlar davam edir. Bir neçə gün əvvəl isə bu ölümcül xəstəlikdən ilk müalicə olunanlar haqqında məlumat yayılmışdır. Liberiya həkimlərinə bu xəstəliklə mübarizədə kömək edən Amerikalı həkim və tibb bacısı bir neçə həftə əvvəl Ebola virusuna yoluxmuş və Amerikaya gətirilmişlər. Amerikanın Atlanta ştatında onları Mapp Biopharmaceutical əczaçılıq kompaniyası əməkdaşları tərəfindən hazırlanmış eksperimental preparat olan Zmapp ilə müalicə etməyə başlamışlar. Bu preparat ancaq heyvanlar üzərində sınaqdan keçirilmiş, lakin klinika həkimləri və preparatın müəllifləri xəstəliyin ölümcül olmasını nəzərə alaraq onu bu iki xəstəyə tətbiq etmək məcburiyyətində qalmışlar. Üç həftəlik müalicədən sonra Ebola virusu ilə yoluxmuş həkim və tibb bacısı tam sağalmış, laborator müayinələrin nəticələrinə görə onların qanında virus aşkar edilməmişdir. Bu preparat həmçinin Liberiya həkimləri tərəfindən üç xəstəyə təyin edilmiş və onların da vəziyyətlərinin yüngülləşməsi bildirilir.

Eksperimental preparat olan Zmapp gen mühəndsliyi vasitəsilə alınmışdır. Əvvəlki tədqiqatlar meymunlar üzərində Ebola virusuna qarşı anticisimlərin bu xəstəlikdə effektli olmasını sübut etmişdir. Belə ki, xəstəlikdən sağ qalmış əntər meymunlarının 10 həftə sonra yenidən bu virusla yoluxdurulması onlarda xəstəliyə səbəb olmamışdır. Bunu nəzərə alaraq əvvəlcə Ebola virusuna qarşı monoklonal anticisimlər əldə edilmiş, sonra anticisim sintezini təmin edən gen vektor vasitəsilə tütün bitkisinə köçürülmüşdür. Sonda tütün bitkisinin yarpaqlarında olan anticisimlər ekstraksiya ilə alınmış, təmizləndikdən sonra tətbiq edilmişdir.

**Akif QURBANOV,**

*Mikrobiologiya və immunologiya kafedrasının professoru, t.e.d.*

# İnsan orqanizmi ilə bağlı inanılmaz faktlar

İnsan həyatını təmin edən başlıca orqan hansıdır, qanımız, həqiqətənmi, qırmızıdır?!



"Tarixdən əvvəlki göz": İnsan gözü olduqca həssasdır və o, tək işıq fotonlarını müşahidə edə bilir. İşıqlı günlərdə isə Yer kürəsinə ən yaxın qalaktika olan Adromeda ulduz qrupunu teleskop olmadan görə bilir. Bu qalaktika 2 milyon işıq ili uzaqlığındadır. Lakin işıq şüaları Andromedadan planetimizə doğru yol alanda Yer kürəsində tək bir insan belə yox idi. Bu isə həmin qalaktikaya baxdığımız zaman əslində təxminən 2.500.000 il əvvələ nəzər saldığımız mənasına gəlir.

"Yoxa çıxan beyin": 35 yaşından etibarən insan hər gün 7000 beyin hüceyrəsi itirir. Təəssüf ki, bu beyin hüceyrələri heç vaxt bərpa edilmir.

"Nənəcan, qulaqların niyə bu qədər böyükdür?": Qığırdaq insan yaşa dolduqca böyüməyə davam edən toxumalardan biridir. Məsələn, burun insan həyatının üçüncü onilliyindən yeddinci onilliyinə qədər böyüməyə davam edir.

"Şimali Amerikdan Cənubi Amerikaya": Ağ ciyər 300 000-dən çox kiçik qan damarlarından ibarətdir. Əgər biz bu kiçik qan damarlarını yanaşı sıralasaq, onların uzunluğu 24000 km-ə çatacaqdır. Bu isə Şimali Amerikdan Cənubi Amerikaya qədər olan məsafədir.

"Piling": İnsanın ən böyük orqanı onun dərisidir. Dəri hüceyrələrini dayanmadan itirir. İnsan bütün həyatı boyu dərsinin təxminən 18 kq-nı itirir.

Hissiyat: İnsan gözü 1.000.000-a qədər müxtəlif rəng və çaları görə bilir, lakin onun yalnız 90%-ni beyinə ötürür. Digər tərəfdən, burun isə 50.000 qoxu arasındakı fərqi hiss edə bilir.

"Baş barmaq": Ayağımızın baş barmağı bədənimizin ən əhəmiyyətli elementlərindən biridir. O, ayaqüstə dayandığımız zaman bədənimizi sabit saxlamağa kömək edir.

"Çox qalın və çox nazik": Aorta arteriyası bədənin ən qalın damarıdır və yetkin insanda onun qalınlığı rezin boru ilə müqayisə edilə bilər. Digər tərəfdən isə, kapilyarlar ən nazik və ən kiçik qan damarlarıdır.

"Qırmızı-qırmızı": Bir çox insan qandakı dəmirin miqdarı ilə əlaqədar olaraq onun qırmızı olduğuna əmindir. Lakin bunun qırmızı rənglə heç bir əlaqəsi yoxdur. Hər bir qan hüceyrəsinin daxilində oksigenlə birləşərək qanın tərkibini dəyişən və qırmızı rəngi əmələ gətirən hemoqlabin var.

**Tərcümə edəni: Rəfiqə ZAMANOVA**

# İştahasızlıq

**İştahasızlıq müxtəlif xəstəliklərin əlaməti kimi meydana çıxa bilir**

İştahasızlıq müxtəlif xəstəliklərin əlaməti kimi meydana çıxa bilir və bu termin qida qəbuluna olan istəyin azalmasını əks etdirir. İştaha qidalanma istəyi və aclıq hissi deməkdir. Bu hiss kifayət qədər qidalı maddələrin və enerjinin bədənə daxil olmasını və maddələr mübadiləsinin fasiləsiz təminatını tənzimləyir. İştaha hissi mərkəzi sinir sistemi və həzm traktı arasında olan qarşılıqlı əlaqə nəticəsində yaranır. Bu hissin istər azalması, istər də artması orqanızmdə normal maddələr mübadiləsinin pozulmasına gətirib çıxarır.

*İştaha hissi mərkəzi sinir sistemi və həzm traktı arasında olan qarşılıqlı əlaqə nəticəsində yaranır.*

## Səbəbləri

- Nevrotik anoreksiya. Nevrotik anoreksiya diaqnozu ən çox (90%) gənc xanımlarda (15-25 yaş arası) qoyulur və psixoloji pozğunluq hesab edilir. Bu xəstəlik zəmanəmizin xəstəliyi olsa da ilk dəfə ədəbiyyatlarda 1874-cü ildə təsvir edilmişdir. Xəstəliyin əsasında xanımların zərif görünmə istəyi durur. Bu məqsədlə onlar qidalanmanı azaldır, ifrat idmanla məşğul olur və hətta maye itirmək üçün sidikqovuculardan, süni qusma və ishal yaratma kimi vasitələrdən istifadə edirlər. Bəzən bu xanımların istəyi uğursuzluqla nəticələnir və bir müddət sonra onlarda iştahasızlıq, qidalanma fobiyası (qorxusu) yaranır. Daha geniş Nevrotik anoreksiya....

**- Həzm sisteminin xəstəlikləri.** İştahasızlıq daha çox qaraciyərin parenximatoz patologiyaları və mədə xəstəlikləri, xüsusilə də mədə xərçəngi zamanı qeyd edilir. İştahasızlığın aşağıdakı səbəbləri qeyd edilə bilər:

**- Ağız boşluğunun, udlağın, qida borusunun iltihabi və tumoroz (xərçəng) dəyişiklikləri**

**- Mədə xəstəlikləri:** qastrit, xora, mədə çıxacağının stenozu (daralması), mədə xərçəngi

**- Bağırsaq xəstəlikləri:** Enteritlər, Kron xəstəliyi, xoralı kolit, appendisit, xroniki ishal, bağırsaq stenozları

**- Qaraciyər və öd yollarının xəstəlikləri**: qaraciyərin kəskin və xroniki iltihabi xəstəlikləri, qaraciyərdə durğunluq, öd daşı xəstəliyi.

**- İntoksikasiya.** İntoksikasiya bədənin bu və digər kənar maddələrlə zəhərlənməsi mənasını verir. Aşağıdakı intoksikasiya növləri iştahasızlıq yarada bilər:

**- Akoqol:** alkoqoldan asılı olan insanlarda səhərlər iştahasızlıq qeyd edilir və diş fırçalayan zaman qusma da yarana bilir. Gün ərzində iştaha getdikcə açılır və hətta ifrat yüksələ də bilir.

**- Narkotik:** narkotikdən asılı olan insanlarda arıqlama, solğunluq, yorğunluq, yuxuculluq, davaranış pozğunluqları, ürəkbulnama kimi əlamətlərlə yanaşı iştahasızlıq da qeyd edilir.

**- Dərman:** bir çox dərmanların qəbulu zamanı əlavə təsir kimi iştahasızlıq qeyd edilir. Bu dərmanlara xərçəng əleyhinə istifadə edilən sitostatiklər, ürək xəstəliklərində istifadə edilən ürək qlükozidləri və s. aid edilə bilər.

**- Peşə zəhərlənmələri:** qurğuşunla, arsenlə, haloid karbohidrogeni kimi maddələrlə xroniki zəhərlənməsi iştahasızlıq yarada bilər.



**- Hərarətin olması.** Bu və ya digər səbəbdən bədən temperaturunun normadan yüksək olması iştahasızlıqla müşayət olunur.

**- Anemiya.** Qanazlığının səviyyəsindən asılı olaraq fərqli dərəcədə iştahasızlıq rast gəlinir və anemiyanın aradan qalxması ilə qaydasına düşür.

**- Maddələr mübadiləsinin pozğunluğu.** Uremiya və ya hiperkalsemiya (kalsiumun qan zərdabında yüksək olması) iştah pozğunluğuna səbəb ola bilər.

**- Endokrin pozğunluqlar.** M.Addison və hipofiz xəstəlikləri iştahasızlıqla müşayət oluna bilər.

**- Hipertoniya.** İştahanın pozulması artıq xəstəliyim daha bədxassəli xarakter almasına işarədir.

**- Xroniki infeksiyalar.** HİV və vərəm kimi infeksiyalar zamanı iştahasızlıq qeyd oluna bilər.

**- Hamiləlik.** Xüsusilə də hamiləliyin birinci trisemesterində iştahasızlıq ola bilər.

**".etibb.org"**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedranın professoru (elmlər doktorları):

- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0.5 vahid)

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- III cərrahi xəstəliklər kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtikası kafedrası - 1 yer
- Urologiya kafedrası - 1 yer
- III daxili xəstəliklər kafedrası - 2 yer
- MPF-nin Uşaq xəstəlikləri kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 1 yer
- II uşaq xəstəlikləri kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 3 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer (0, 5vahid)
- Uşaq və yeniyetmələr gigiyenası, əmək gigiyenası - 1 yer
- Biofiziki və bioüzvü kimya kafedrası - 1 yer

### Kafedraların baş müəllimləri:

- Xarici dillər kafedrası - 1 yer (0.75 vahid)
- Xarici dillər kafedrası - 1 yer
- Bədən tərbiyəsi və idman kafedrası - 1 yer
- Mikrobiologiya və immunologiya kafedrası - 2 yer
- Patoloji fiziologiya kafedrası - 1yer

### Kafedraların baş müəllimləri:

- Azərbaycan dili kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 2 yer

### Kafedraların assistentləri:

- Dermatovenerologiya kafedrası - 1 yer
- Kliniki farmakologiya kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtikası kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0, 5 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0, 5 vahid)
- III daxili xəstəliklər kafedrası - 1 yer
- MPF-nin Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- Neonatologiya kafedrası - 1 yer (0.75 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer

### Elmi Tədqiqat Mərkəzi

Patoloji proseslərin modelləşdirilməsi və eksperimental terapiya şöbəsi

- kiçik elmi işçi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti 16 sentyabr 2014-cü il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-43-23**

### Etibarsız sayılır

Yusifov Emin Məmməd oğluna Azərbaycan Tibb Universiteti tərəfindən 1998-ci ildə terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə - profilaktika fakültəsinin II kurs, 273ª qrup tələbəsi Talıbov Vüsal Məhəmməd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə - profilaktika fakültəsinin V kurs, 165ᵇ qrup tələbəsi İbrahimxəlilova Xanım Şahin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır

# MDB MƏKANINDA ƏN MÖHTƏŞƏM TƏDRİS CƏRRAHİYYƏ KLİNİKASI

(əvvəli səh. 4-5-də)

### "Açıq qəlb əməliyyatlarının aparılması üçün ciddi hazırlıq işləri görülür"



Bax, bu alqışlardır sağlamlıq keşikçilərinin mükafatı, qazancı. Doğru deyiblər ki, kədəri paylaşanda azalar, sevinci paylaşanda isə çoxalar. Biz də ata-ananın sevincini paylaşdıq ki, daha da artsın. Elə reportajımızı da bu nikbin notlar üzərində tamamlamaq istədik. Amma düşündük ki, bir neçə dəfə əməliyyatda olduğuna görə görüşə bilmədiyimiz klinikanın direktoru, peşəkar cərrah, təvazökar insan Hacıqulu Bağırovun da ürək sözlərini dinləməsək reportajımız yarımçıq görünər. Vaxtilə Böyük Elmi Şuranın yığıncağında Universitetimizin rektoru, akademik Əhliman Əmiraslanov Tədris Cərrahiyyə Klinikasının direktoru vəzifəsinə onun namizədliyini irəli sürəndə şura üzvlərinin bu təklifi necə böyük razılıqla qarşıladıqlarını da xatırladıq.

**Klinikanın direktoru Hacıqulu Bağırov:**

*- Klinikamız MDB məkanında bütün təchizatı olan vahid tədris cərrahi klinikadır. Əsas vəzifəmiz tədrislə müalicəni professional olaraq aparmaqdır. Cərrahi yönümlü bütün kafedraların yerləşdiyi klinikamızda treninq mərkəzi, multi-media ilə təchiz olunmuş dərs otaqları mövcuddur.*

*Ayın 8-də tədrislə bağlı müşavirədə də qərara alındı ki, təhsil, elm, etika, tibbi-ekpertiza komissiyaları yaradılsın və həmin komissiyalar vasitəsilə həm tədrisə, həm də müalicə işlərinə nəzarət edilsin.*

*Hədəfimiz ən unikal əməliyyatların aparılmasıdır. İnvaziv kardiologiya əməliyyatının aparılması artıq reallaşıb. Açıq qəlb əməliyyatlarının aparılması üçün ciddi hazırlıq işləri görülür. Transplantasiya əməliyyatlarını dərindən öyrənmək məqsədilə əməkdaşlarımızı Türkiyəyə ezamiyyətə göndərmişik. Gələcəkdə qaraciyər və böyrək köçürmə əməliyyatları həyata keçiriləcək. Bu sahədə səriştəsi olan mütəxəssislərimiz var. Mən bir rəhbər kimi buradakı mütəxəssislərin səviyyəsindən çox razıyam. Onu da bildirim ki, burada universitetin 16 kafedrası fəaliyyət göstərir. Professor-müəllim heyətindən əlavə hörmətli rektorumuz akademik Əhliman Əmiraslanovun tövsiyəsi ilə xaricdə təhsil alan uzmanlar klinikamıza yönləndirilir. Sevindirici haldır ki, mama-ginekoloji, burun-boğaz-qulaq, ağız, üz-çənə, ürək-damar cərrahiyyəsi, travmatologiya, urologiya, radiologiya sahələri üzrə fəxr edə biləcəyimiz mütəxəssislər çalışırlar.*

*Hələlik klinikada gün ərzində 20-25 əməliyyat aparılır, hədəfimiz isə bu rəqəmi 60-70-ə çatdırmaqdır.*

*Son olaraq deyim ki, möhtərəm prezidentimiz İlham Əliyev cənablarının sərəncamı ilə yaradılan və xeyir-duası ilə fəaliyyətə başlayan Tədris Cərrahiyyə Klinikasının qısa müddətdə müsbət imic qazanmasında universitetimizin rəhbəri, millət vəkili, akademik Əhliman Əmiraslanovun şəxsi nüfuzu böyük rol oynayıb. Kollektivimizin qarşısında duran başlıca vəzifə də bu müsbət imici qoruyub saxlamaq, klinikamızı ölkənin ən reytinqli klinikasına çevirməkdir.*

Biz də öz növbəmizdə "hədəfə doğru gedən yolunuz açıq olsun, burada şəfa tapan xəstələrin sevincindən hər birinizə pay düşsün"- deyirik. Unutmayaq ki, bıçaq cani əlində ölüm, cərrah əlində isə şəfa alətidir. Ölümə meydan oxuyan şəfa bıçağınız heç vaxt korşalmasın!

**Arif MƏMMƏDLİ,**
**Qabil ABDULLAYEV**
**Fotolar Cənnətalı Çingizindir**

# Yuxunun optimal müddəti təqribən 7 saat 40 dəqiqəyə bərabərdir

**Fin İstehsalat Təbabət İnstitutunun alimləri insanların orta hesabla hər gün yuxuda olduqları vaxtı buraxdıqları iş günlərinin sayı ilə müqayisə edərək, yuxunun ən optimal vaxtını müəyyən ediblər. Bu tədqiqatın nəticələri "Sleep" jurnalında dərc edilib.**



Alimlər öz tədqiqatları çərçivəsində yaşı 30-dan çox olan 1875 qadın və 1885 kişi ilə sorğu apararaq onların gündə neçə saat yatdıqlarını müəyyən ediblər. Tədqiqatçılar sorğuda iştirak edənlərin cavablarını bu şəxslər tərəfindən götürülən bülletenlər (xəstəlik kağızları) haqqında Dövlət Sosial Sığorta İnstitutunun bazasında saxlanılan məlumatlarla müqayisə ediblər.

Məlum olub ki, gün ərzində 7-8 saat yatan insanlar sutkada 5 saatdan az və ya 10 saatdan çox yatanlarla müqayisədə daha az hallarda xəstəlik vərəqi götürürlər (fərq 5- 9 günədək təşkil edir). Alimlər yuxunun ən optimal vaxtını da müəyyən ediblər. Kişilər üçün ən optimal yuxu vaxtı 7 saat 42 dəqiqə, qadınlar üçün isə 7 saat 38 dəqiqədir. Tədqiqatın müəllifləri qeyd ediblər ki, bu orta rəqəmlərdir, hər insan üçün yuxunun optimal vaxtı fərdidir və əgər birisi altı saatlıq yuxudan sonra özünü yaxşı hiss edirsə, buna görə narahat olmağa dəyməz.

Bundan əvvəl Sinqapur universitetinin alimləri az yatmağın beynin fəaliyyətinə pis təsir göstərməsini eksperimentlərlə təsdiq edə biliblər.

# Yeni dərs ilimiz mübarək olsun!

Gəlişi var olsun dərs ilimizin,
Əhvalı xoş olsun hər ilimizin.
Ləçəyi açılsın tər gülümüzün,
Yeni dərs ilimiz mübarək olsun!

Qədir – qiymətini bilək hər kəsin,
İşlədək dahilər sözün, kəlməsin.
Azərbaycan elim gözə gəlməsin,
Yeni dərs ilimiz mübarək olsun!

Gəncliyin zirvəsi daha ucalsın,
Hər biri elmidən bəhrə, güc alsın.
Nizami, Füzuli olub qocalsın,
Yeni dərs ilimiz mübarək olsun!

Elm, ziya bürüsün Azərbaycanı,
Ziyalıya dönsün hər bir insanı.
Dünyaya car çəksin şöhrəti, şanı,
Yeni dərs ilimiz mübarək olsun!

Uğurla oxusun hər tələbəmiz,
Yayılsın hər yana hər qələbəmiz.
Ödənsin hər yerdə hər tələbimiz,
Yeni dərs ilimiz mübarək olsun!

**Saşa ƏLİYEV**

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 174